

# BAKININ MEMARLIQ İRSİNİN PROBLEMLƏRİ

Respublikamızın paytaxtını bəzəyən monumental binaların ucaldılmasında İ.K.Poleşko, A.Polyakov, İ.V.Qoslavski, N.Q.Bayev ilə yanaşı, Zivər bəy Əhmədbəyov, M.K.İzmaylov, İmran Hacı Qasımov, M.Ə.Hüseynov kimi görkəmli milli memarlarımızın da böyük xidmətləri olmuşdur.

XX əsrin sonlarında tale xalqımıza müstəqil milli dövlət qurmaq şansı bəxş edəndən sonra respublikamızın ərazisindəki bütün memarlıq abidələri milli sərvətimiz kimi Azərbaycan Respublikasının prezidenti tərəfindən 10 aprel 1998-ci ildə təsdiq olunmuş «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» qanunla dövlət mühafizəsinə götürülmüşdür. Dövlətimizin qarşısında duran problemlərin həll edilməsi, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyası yolunda, vətənimizin bu günü və sabahı üçün böyük əhəmiyyət kəsb edən cəsarətli addımlar atan dövlət rəhbərimiz Heydər Əliyev tarixi memarlıq abidələrimizin qorunması və bərpası məsələlərinə həmişə böyük diqqət və qayğı ilə yanaşmışdır. Mədəni irsimizin qiymətli yadigarları olan Şirvanşahlar sarayı kompleksinin, Möminə Xatun və Qarabağlar türbələrinin, Şəki xanlarının sarayının bərpası üçün Dünya Bankı tərəfindən on milyon dollar məbləğində kredit ayrılmasında xalqımızın görkəmli dövlət xadiminin böyük xidməti olmuşdur.

Lakin təəssüflər olsun ki, Bakı şəhərində memarlıq abidələri olan bəzi binalar son zamanlar şəhərdə geniş vüsət almış inşaat işləri nəticəsində müxtəlif bəhanələrlə qəsdən dağıdılmışdır. Məsələn, 30-cu illərin memarlıq əsəri olan «İnturist» mehmanxanasının binası, «Qızıl Şərq» mətbəəsinin binası, Həzi Aslanov küçəsi 60 saylı ünvanda mövcud olmuş yaşayış evi və başqaları. Halbuki, bu abidələr dövlət tərəfindən qorunan mədəni irs siyahısına daxil idi. Abidələrimizin sayı ilbəil azalır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 avqust 2001-ci il tarixli, 132 saylı qərarı ilə təsdiq edilmiş dövlət mühafizəsinə götürülən daşınmaz abidələr siyahısında görünür əsaslı düzəlişlər edilməlidir. Son on beş ildə həm işğal zonalarında erməni vandalları tərəfindən, həm də arxa cəbhədə öz nadanlarımız tərəfindən xeyli abidələrimiz dağıdılmışdır. Bakı şəhərində qeyri-peşəkar şəxslər tərəfindən aparılan təmir, bərpa işləri nəticəsində abidələrə ciddi xəsarət yetirilir. Buna istənilən qədər misal gətirmək olar. İstiqlaliyyət küçəsindəki 37 saylı bina şəhərimizi bəzəyən ən gözəl binalardandır. Bir neçə il bundan əvvəl binanın zirzəmisində memarlıq abidələrində təmir qaydalarının pozulması ilə muşayiət olunan kobud təmir işlərinin aparılması arzuolunmaz nəticələrə gətirib çıxarıb.

Aramsız zərbələr və silkələnmələrə davam gətirə bilməyən binanın fasad hissəsi çatlayıb çökmüşdür. Naşı təmirçilərin özbaşnalığı nəticəsində abidəyə ciddi xəsarət yetirilmişdir.

Azərbaycan Tarixi Muzeyinin yerləşdiyi binanın fasad hissəsi heç bir lüzum olmadan ağardılmış, damdakı ornamentli günbəzlərin ikisi parıldayan sinkli metal vərəqələrlə eybəcər və gülünc şəkildə üzlənmişdir. Günbəzlərin zəruri memarlıq elementi olan şpilləri yenidən ucaltmağı isə «təcrübəli mütəxəssislər» görünür, ya unutmuş, ya da lazımsız hesab etmişlər. Xalqımızın



*Prezident İlham Əliyevin «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarixi-memarlıq abidələrinin bərpası və qorunması haqqında» 18 avqust 2006-cı il tarixli sərəncamını respublika ictimaiyyəti böyük razılıq hissi ilə qarşılamışdır.*

*Respublikamızın və onun paytaxtı Bakı şəhərinin ərazisi xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalan maddi-mədəniyyət abidələri ilə zəngindir. Bu gün mədəniyyət abidələrimizin qayğısına qalıb, onları mühafizə edə bilirikmi?*

*XIX əsrin sonları – XX əsrin əvvəllərində çar Rusiyasının ən iri sənaye mərkəzlərindən biri olan Bakı şəhərində neft sənayesinin güclü irəliləyişi memarlıq və şəhərsalmanın inkişafına əhəmiyyətli təsir göstərmişdi. Bu dövrdə Bakıda qabaqcıl Avropa memarlığı üslubunda gözəl monumental binalar, mühəndis konstruksiyalarının tətbiqinə əsaslanan tikililər yaradılmışdı.*

görkəmli xeyriyyəçisi, gözəl memarlıq binaları ilə şəhərimizi bəzəmiş Hacı Zeynalabdin Tağıyevin mülkündə bərpa təmir işləri zərgər dəqiqliyi ilə, elmi əsaslarla mütəxəssislər tərəfindən aparılmalıdır. Bu işlərin naşı əllərə etibar edilməsi memarlıq abidəsinin xarici bədii-estetik görünüşünün korlanmasına səbəb olmuşdur. Binanın daxilində ciddi bərpa işləri aparılmalıdır.

Şıxəli Qurbanov adına Dövlət Musiqili Komediya Teatrı binasının faciəli aqibətini necə unutmaq olar? H.Z. Tağıyevin XIX əsrdə tikdirdiyi bu bina Şərqdə ilk teatr binası idi. 1980-ci illərin sonunda bərpa etmək bəhanəsi ilə binanı söküb yerində tamamilə başqa memarlıq üslubunda əcaib bir bina ucaltdılar. Bəhanə isə belə oldu: bina qəza vəziyyətində idi, darısqal idi, müasir tələblərə cavab vermirdi və s. Əlbəttə, bu memarlıq abidəsini bərpa edib boş bir yerdə yeni, müasir teatr binası tikmək daha yaxşı olardı. Dünya praktikasından məlumdur ki, memarlıq abidəsinin qəza vəziyyətində olması onun sökülüb dağıdılmasına əsas vermir. O, mövcud layihə əsasında olduğu kimi bərpa olunmalıdır. Bakı şəhərində isə, əfsus ki, bir çox hallarda bunun tam əksi olur.

Paytaxtın abadlaşdırılması sahəsində şəhər rəhbərliyinin son illər gördüyü təqdirəlayiq işləri hamı görür və razılıq hissi ilə qarşılayır. Uçuq-sökük, yararsız, görkəmsiz tikililərin müasir üslubda yaraşıqlı binalarla əvəz edilməsi sevindirici haldır. Lakin əfsuslar olsun ki, son illər qəza vəziyyətində olması bəhanəsi ilə şəhərin memarlıq fondunu təşkil edən memarlıq tikililəri sökülür, yerində çoxmərtəbəli göydələnlər ucaldılır. Bu hal, zənnimizcə, bəzi məmurların kommersiya maraqlarından irəli gəlir. Roma, Paris, London, Sankt- Peterburq şəhərlərində memarlıq abidələrini bərpa edib şəhərin görkəmini qoruyurlar. Xarici turistlərin Bakının mikrorayonlarındakı, Əhmədli və Yeni Günəşli massivlərindəki çoxmərtəbəli şablon üslublu binalara maraqla tamaşa edəcəklərini düşünmək mənasızdır. Göydələn binaları şəhərin mərkəzi hissəsində deyil, ətraf ərazilərdə ucaltmaq daha münasib olardı.

Azərbaycan Dövlət İqtisad Universitetinin binası ölkə əhəmiyyətli abidədir. Şəhər İcra Hakimiyyətinin gözü qarşısında yerləşən bu binaya təmir işləri zamanı ağacdan hazırlanmış pəncərələrin yerinə alüminium pəncərələr quraşdırılmışdır. Nəticədə yüz illik yaşı olan binanın ilkin tarixi memarlıq görünüşü pozulmuş, fasad hissəsi gülünc görkəm almışdır. Memarlıq abidələrimizi bərpa etmək əvəzinə bərbad vəziyyətə salan belə «mütəxəssisləri» təcrübə mübadiləsi məqsədi ilə Sankt-Peterburq, Riqa, Tallin, Moskva şəhərlərinə ezam etmək faydalı olardı.

Bir çox hallarda abidələrin qəsdən korlanmasında və dağıdılmasında bilavasitə təqsirkar olan varlı şəxslər naməlum səbəblərə görə ya cəzalandırılmır, ya da cüzi məbləğdə cərimə ödəməklə məsələni həll edirlər.

Mədəniyyət və Turizm Nazirliyi abidələrin mühafizəsinə dair qanunda, inzibati xətalar və cinayət məcəllələrində zəruri dəyişikliklər və əlavələr edilməsi təklifi ilə respublikanın ali qanunvericilik orqanına müraciət etməli, bu sahədə qanunvericilik bazası təkmilləşdirilməlidir.

Mərhum Prezidentimiz Heydər Əliyevin «Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında» 17 fevral 2003-cü il tarixli sərəncamı ictimaiyyətin səbirsizliklə gözlədiyi bir hadisə idi. İçərişəhərdə hələ 1980-ci illərin əvvəllərində mühafizə və bərpa işləri ilə bağlı bəzi problemlər meydana çıxmışdı. O dövrdə Bakı Soveti İcraiyyə Komitəsinin «Bərpaçı» Elmi Bərpa İstehsalat İdarəsi İçərişəhər ərazisində Kiçik Qala, Mirzə Şəfi, Tver, Asəf Zeynallı və digər küçələrdə 1863-1898-ci illərə aid bir çox tikililəri dağıtmışdı. Əslində heç bir təsdiq olunmuş bərpa layihə sənədləri olmayan «Bərpaçı» Şirvanşahlar sarayı binasının ikinci mərtəbəsinin damını uçurmuşdu. Bu azmış kimi

«Bərpaçı» XVIII əsrin milli memarlıq abidəsi olan Bakı xanlarının evinin də bir hissəsini söküb dağıtmışdı. Abidə bu günədək xaraba vəziyyətindədir.

1977-ci ildə yaradılmış İçərişəhər qoruğu 1985-ci ildə dövlət-tarix memarlıq statusu alıb. Təəssüf ki, o dövrdən etibarən İçərişəhər qoruğunun müdirliyi passiv bir qurumdur. Sirr deyil ki, İçərişəhərin dövlət əhəmiyyətli obyekt kimi qorunması işindəki özbaşınalıqlar bu qurumun bilavasitə iştirakı ilə baş verirdi.

«Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» Azərbaycan Respublikasının 10 aprel 1998-ci il tarixli Qanununda olan bəzi ziddiyyətlər abidələrin mühafizəsi işində ciddi problemlər doğurur. Qanunla bu iş eyni zamanda həm Mədəniyyət Nazirliyinə, həm də yerli icra hakimiyyəti orqanlarının səlahiyyətinə aid edilir. Bu cür ikili tabeçilik sistemi özbaşınalıq üçün zəmin yaradır. Yaxşı olar ki, qanunda müvafiq düzəliş edilsin, respublikadakı bütün daşınmaz abidələrin və qoruqların dövlət tərəfindən mühafizəsi konkret təşkilata, Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın.

İçərişəhər Tarix və Memarlıq Qoruğunun Əsasnaməsinə zidd olaraq şəhər İcra hakimiyyətinin başçıları tərəfindən vəzifəyə təyin olunan və tez-tez dəyişdirilən qoruq müdirlərinin qətiyyətsizliyi işi o yerə çatdırmışdı ki, müdiriyyətin inzibati binasının düz qarşısında əcaib-qəraib təzə bir «tarixi abidə» ucaldılmış, Şirvanşahlar sarayı kompleksinin həyətində isə «özbaşınalıq abidəsi» - ikimərtəbəli qazanxana binası tikilmişdi.

Qız qalası yaxınlığında Yuxarı Bazar meydanında tikilən çoxmərtəbəli nəhəng bina öz yöndəmsiz görünüşü ilə bu ərazinin uzun əsrlər ərzində formalaşmış tarixi memarlıq mənzərəsinə xələl gətirir. Bu sözləri Şirvanşahlar sarayı ətrafında tikilmiş çoxmərtəbəli binalar, Yunanıstan və Gürcüstan səfirliklərinin, İngiltərə konsulluğunun binaları və son illər inşa edilmiş bir çox xüsusi mülk, mehmanxana və ofislər barədə də demək olar. XI əsrin yadigarı olan Sınıqqala minarəsinin ətrafında inşa olunmuş çoxmərtəbəli binalar bu abidəni görünməz edib. Qoşa qala darvazaları qarşısındakı meydan əsrlər boyu yonulmuş çay daşları ilə örtülü olub. Bir neçə il əvvəl bu meydana standart üzlük daşlar döşənib. Nəticədə orta əsr şəhər meydanının mənzərəsi pozulub.

Şəhərsalma sənətinin nadir nümunələrindən biri kimi 2000-ci il dekabrın 2-də YUNESKO-nun «Dünya irs Siyahısına» daxil edilmiş, beynəlxalq əhəmiyyətli abidə və turizm obyekti olan İçərişəhərin dövproblemlərini həll etmək üçün dövlət komissiyası yaradılmalıdır. İçərişəhərin bərpası planı yenidən işlənməlidir. İlk addım kimi çoxəsrlik tarixi olan orta əsr şəhərinin milli memarlıq görünüşünü saxlamaq barədə düşünmək lazımdır.

Britaniya konsulluğunun, Ensiklopediyanın binasının və bir sıra digər ofis, mülk və tikililərin fasad hissələrində «Azərbərpa» Elmi Tədqiqat Layihə İnstitutu, Memarlar İttifaqı mütəxəssislərinin iştirakı ilə milli memarlıq üslubunda dəyişikliklər edilməlidir. Hərbi komendatura və həbsxana kompleksi başqa yerə köçürülməlidir. İçərişəhər dövlət əhəmiyyətli turizm obyektidir. Əcnəbilər İçərişəhərə böyük maraq göstərir. Burada görkəmsiz çoxmərtəbələr tikməkdə yarışan milyonçularımız milli mənafeyi də nəzərə almalıdır. Belə binalar üçün şəhər ətrafında kifayət qədər yer var.

«Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında» Prezident İlham Əliyevin 10 fevral 2005-ci il tarixli Sərəncamı dövlət əhəmiyyətli turizm obyekti kimi İçərişəhərin bərpa və abadlaşdırılması problemlərinin ölkə rəhbərinin diqqət mərkəzində olduğunu bir daha təsdiq edir.

Dünyanın inkişaf etmiş qabaqcıl sənaye ölkələrində xarici turizmdən böyük mənfəət götürülür. ABŞ-da hər il xarici turizm sahəsindən 150-200 milyard dollar, Türkiyədə 20 milyard dollar, Almaniya, İngiltərə, İtaliya, Fransa, Yaponiya və digər xarici ölkələrdə də külli məbləğdə maliyyə büdcəsinə daxil olur. İnkişaf etməkdə olan elə ölkələr var ki, onların dövlət büdcəsinin əsasını xarici turizm gəlirləri təşkil edir.

Bu gün əməksevər xalqımızın qurub yaratmaq əzmində olan yüz minlərlə nümayəndəsi iş dalınca Rusiyaya və digər ölkələrə getməyə məcburdurlar. Respublikamızda turizm sənayesinin inkişaf etdirilməsi böyük sosial bəla olan işsizlik probleminin həllinə xeyli kömək etmiş olar.

Azərbaycan xalqının mədəni irsi dünya mədəni irsinin ayrılmaz tərkib hissəsi olduğundan xalqımızın maddi mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən bir problemdir.

Bakı şəhərində, onun tarixi İçərişəhər hissəsində xalqımızın çoxəsrlik keçmişindən və zəngin mədəniyyətindən xəbər verən memarlıq əsərlərinin ciddi mühafizə edilməsi, onların bərpası, təmiri və konservasiyasına ayrılan milyonlarla manat və büdcə vəsaitlərindən səmərəli istifadə olunmasına dövlət nəzarətinin gücləndirilməsi və mədəni irsimizin xarici turistlər arasında yüksək səviyyədə təbliğ edilməsi bu gün öz həllini gözləyən vacib ümummilli problemlərdir. Bakının memarlıq irsinin qorunub saxlanılmasını xalqımızın və vətənimiz Azərbaycanın mənafeyi, əcdadlarımızın müqəddəs ruhu tələb edir.

**Vaqif ƏSƏDOV,**
**Azərbaycan Tarix və Mədəniyyət Abidələrini Mühafizə Cəmiyyətinin sədr müavini**